# Fransanın insan haqlarından danışmağa haqqı yoxdur

Fransanın ölkəmiz əleyhinə guya ermənilərin etnik təmizlənməsi ilə bağlı qəbul etdiyi qətnamələr qərəzlidir. Hər zaman qanunun aliliyinə, insanların hüquq və azadlıqlarına böyük hörmətlə yanaşan Azərbaycana qarşı belə böhtan atmaq ədalətsizlikdir. Fransa ünvanımıza saxta ittihamlar səsləndirməklə heç nə əldə edə bilməyəcək. AŞPA-da Azərbaycana qarşı nümayiş etdirilən qərəzin və ikili standartların müəllifi də Fransadır. Ümumiyyətlə, Parisin əli milyonlarla insanın qanına bulaşıb. Demokratik prinsipləri ayaq altına atan bu ölkənin Azərbaycandan nəsə tələb etməyə haqqı yoxdur.

→ 9

Azərbaycan.- 2024.- 10 fevral, № 29.- S.1, 9.

# Fransanın insan haqlarından danışmağa haqqı yoxdur

**"Fransa bəzi ölkələrdə öz marağına uyğun siyasi sabitliyi pozmaq üçün insan haqları və demokratiya kimi ali dəyərlərdən sui-istifadə edir. Faciə həm də orasındadır ki, Fransanın özbaşınalıqları demokratiyadan ağızdolusu danışan Qərb dövlətlərinin gözü qarşısında baş verir və onlar səslərini belə çıxarmırlar. Belə başa düşülür ki, Fransaya insan haqlarını tapdalamaq və demokratik prinsipləri pozmaq olar. Eyni zamanda Fransa bu prinsipləri təmin etmiş ölkələrə qarşı şər-böhtan yağdırmaq, bundan təzyiq vasitəsi kimi istifadə etmək yolu da tutub. Bu, ədalətsizlik və vicdansızlıqdır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, Qərbdə Fransaya ali prinsipləri xatırladan olmadığına görə, bu ölkə müstəmləkəçilk siyasətindən əl çəkmir, insanların hüquq və azadlıqlarını tapdalayır: "Məsələn, 2024-cü il yanvarın 28-də Korsikada 700-ə yaxın insan müstəqillik uğrunda mübarizə aparan strukturları və fəalları birləşdirən, Fransanın müstəmləkə hökmranlığına qarşı mübarizəyə sadiqliyini təsdiqləyən yeni "Nazione" hərəkatını təsis edib. Fransa həmin hərəkata qarşı soyqırımı siyasəti aparır. Makron hakimiyyətinin polisləri "Nazione" hərəkatının fəallarına qarşı zor tətbiq etməkdə davam edirlər. Korsikalıların həbsi, təqiblər, onlara qarşı alçaldıcı və təhqiredici hərəkətlər genişləndirilib. Halbuki, korsikalılar da dünyanın bütün sivil xalqları kimi təməl haqlarına malik olmaq üçün mübarizə aparırlar. Onlar da öz dillərində danışmaq, təhsil almaq və milli-mənəvi dəyərlərini inkişaf etdirmək haqqına sahibdirlər. Lakin Fransa hesab edir ki, korsikalıların heç bir haqqı yoxdur və onlar əbədi olaraq qul və kölə kimi yaşamalıdırlar. Yəni Fransanın insan haqlarından anladığı bir şey olsaydı, əvvəlcə özü tətbiq edər, sonra başqa ölkələrdə səhv axtarmağa başlayardı".

Deputatın dediklərinə görə, Fransanın ölkəmiz əleyhinə guya ermənilərin etnik təmizlənməsi ilə bağlı qəbul etdiyi qətnamələr qərəzlidir. Hər zaman qanunun aliliyinə, insanların hüquq və azadlıqlarına böyük hörmətlə yanaşan Azərbaycana qarşı belə böhtan atmaq ədalətsizlikdir. Fransa ünvanımıza saxta ittihamlar səsləndirməklə heç nə əldə edə bilməyəcək.

"AŞPA-da Azərbaycana qarşı nümayiş etdirilən qərəzin və ikili standartların müəllifi də Fransadır. Ümumiyyətlə, Parisin əli milyonlarla insanın qanına bulaşıb. Demokratik prinsipləri ayaq altına atan bu ölkənin Azərbaycandan nəsə tələb etməyə haqqı yoxdur. Bu məsələdə Fransaya dəstək verənlərə hüququn aliliyi və insan haqları maraqlıdırsa, bunu ilk növbədə Avropanın mərkəzində yerləşən Fransadan tələb etsinlər. Biz isə Fransanın müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparan xalqlara öz dəstəyimizi davam etdirəcək və onların təməl hüquqlarının təmin olunmasına  çalışacağıq. Dünyada gec, ya tez haqq-ədalət öz yerini tapır", - deyə müsahibimiz əlavə edib.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*